Ədəbiyyat QƏZETİ 5 iyun 2024-cü il




# E L Ç İ N

Vaxtilə ədəbiyyata yanaşmada yanlış bir təsnifat yaradılmışdı. Yazıçıları iki yerə ayırırdılar. Guya kimsə ədəbiyyata həyatdan, kimsə də kitabdan gəlib. Söhbət ədəbiyyata kitabdan gələn şairlərdən gedirsə, Vaqif Səmədoğlu elə həmin dərəcədə də həyatdan gəlmiş bir şair idi. Buna görə də onun poeziyası həm intellektual, həm də həyati poeziya idi. Onun yaradıcılığı müasir Azərbaycan ədəbiyyatında yeni poeziyanın xüsusi mərhələsini təşkil edir. Unudulmaz Vaqif Səmədoğlu müasir dövrlə ahəngdar surətdə sıx bağlanan sənətkar ənənə ilə novatorluğun vəhdətində, sərbəst şeirin də imkanlarından istifadə edərək, müasir insanın psixologiyasının dolğun və əhatəli təsvirinə nail olmuşdur.